Aprelin 18-də Təhsil Nazirliyində ümumtəhsil məktəblərinin I sinifləri üçün 2008-2009-cu dərs ilinə milli kurrikulum əsasında dərslik komplektlərinin hazırlanması ilə bağlı müşavirə keçirilib.

Müşavirədə təhsil naziri Misir Mərdanov milli kurrikulum əsasında 13 adda dərslik, 21 adda müəllimlər üçün vəsait, 15 adda şagirdlər üçün iş dəftəri hazırlanacağını və bu məqsədlə görülən işləri qeyd edib. Nazir aparılan tədbirlərə müvafiq olaraq beynəlxalq məsləhətçilərlə keçirilən görüşləri, onların verdikləri məsləhət və tövsiyələrin nəzərə alındığını diqqətə çatdırıb. Nazir, həmçinin hazırlanacaq dərslik komplektlərinin qiymətləndirilməsi işinin müstəqil qurum olan Dərslikləri Qiymətləndirmə Şurası tərəfindən həyata keçiriləcəyini bildirib.

Nazir müşavirədə iştirak edən nəşriyyat rəhbərlərinə və digər şəxslərə qeyd olunan istiqamətdə konkret tapşırıqlar verib.

Sonra Dərslikləri Qiymətləndirmə Şurasının sədri Elmina Kazımzadə şuranın görəcəyi işlər, qarşıda duran vəzifələr haqqında məlumat verib, habelə nəşriyyat direktorlarının müvafiq məsələlərlə bağlı sualları cavablandırılıb.